

# "Sərhəd Pələngi"

**Vətən Müharibəsi Qəhrəmanı Azər Yusifliyə həsr olunan "Sərhəd Pələngi" bədii sənədli filmi Ağstafa rayon Heydər Əliyev Mərkəzində nümayiş etdirilib. Film "İctimai TV" tərəfindən hazırlanıb. Tədbirdə Ağstafa RİH başçısı Seymur Orucov, Vətən Müharibəsi Qəhrəmanının atası Nazim Yusifov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, Dövlət Sərhəd Xidmətinin əməkdaşları, şəhid ailələrinin üzvləri, müharibə veteranları, məsul şəxslər, ictimaiyyət nümayəndələri iştirak ediblər.**



Filmin nümayişindən əvvəl müstəqil Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Rayon rəhbəri çıxış edərək Azər Yusiflinin 44 günlük Vətən müharibəsi zamanı müqəddəs torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə nümayiş etdirdiyi şücaət və fədakarlıqdan, eləcə də şəhid ailələrinin üzvlərinə, müharibə iştirakçılarına dövlətimiz tərəfindən göstərilən yüksək diqqət və qayğıdan söz açıb. Qəhrəman şəhidimizin atası çıxış edərək Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqımıza bəxş etdiyi tarixi Qələbəyə, eləcə də şəhidlərimizin əziz xatirəsinin hər zaman uca tutulmasına, onların ailə üzvlərinə göstərilən hərtərəfli dövlət qayğısına görə minnətdarlığını ifadə edib.

Tədbir iştirakçıları mərkəzin foyesində Vətən Müharibəsi Qəhrəmanı Azər Yusiflinin keçdiyi şərəfli ömür və döyüş yolundan bəhs edən jurnal, kitab və qəzetlərdən ibarət sərgiyə baxıblar.

Şəhid Yusifli Azər Nazim oğlu 1994-cü il mart ayının 28-də Ağstafa rayonunun Böyük Kəsik kəndində anadan olub. Tam orta təhsilini boya-başa çatdığı Böyük Kəsik kəndində alıb. Orta məktəbi bitirdikdən sonra 2012-ci ilin aprelində hərbi xidmətə yollanıb və Ədliyyə Nazirliyinin Penitensiar xidmətində kiçik çavuş rütbəsi ilə xidmət edib. İgid əsgər gələcəkdə də fəaliyyətini vətəninə, torpağına xidmət etmək həvəsində olub. Beləliklə də həqiqi hərbi xidmətini nümunəvi şəkildə başa vurduqdan sonra sənədlərini Sərhəd Qoşunlarına təqdim edib. Azər bütün meyarlarına görə yüksək qiymətləndirilərək arzu etdiyi işə qəbul olunub. Sərhəd xidmətində fəaliyyətinə Cəlilabad rayon Göytəpə sərhəd dəstəsinin "N" saylı hərbi hissəsində başlayıb. Xidmətdə fərqləndiyinə görə, dəfələrlə komandirləri, o cümlədən Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev tərəfindən fəxri fərman və medallarla mükafatlandırılıb. Hərbi döyüş və idman hazırlığında xidmətlərinə görə öz arzusu ilə Mərdəkanda yerləşən sərhəd qoşunlarına məxsus xüsusi təyinatlı dəstəyə göndərilir. Azər orada keçirilən döyüş təlimlərində və taktiki, texniki fəaliyyətində fərqlənib. 2020-ci il sentyabr ayının 27-də Vətən müharibəsi başlayanda Sərhəd Qoşunlarına məxsus "Xüsusi təyinatlı kəşfiyyat dəstəsi" torpaqların azad olunması üçün ön sırada xidmətə yollanır. Həmin dəstənin üzvü Azər Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı, Zəngilanın azad edilməsində böyük şücaət və qəhrəmanlıq göstərib. Onun döyüşlərdə necə mətinliklə vuruşduğu, göstərdiyi rəşadəti haqqında qazi olan döyüş yoldaşları ağızdolusu danışırlar. Cəbrayıl azad ediləndə Xudafərin körpüsünün, Zəngilan azad ediləndə isə Zəngilan Prokurorluğu binasının üstünə bayrağı məhz Azər sancıb. 26 yaşlı şəhidimiz Azər ümumilikdə 26 ərazidə Azərbaycan bayrağını ucaltmışdır. Müharibənin ilk həftəsində Azər yaralanır və hospitalda müalicə alır. Üç gün sonra o, hələ tam sağalmamış yaralarını sarıyıb döyüş meydanına qayıdır. Bu sadəcə hünər işi deyil, bunun üçün həm də Vətəni sevən böyük ürək lazımdır. Son döyüşündə xidmət keçdiyi bölmə ermənilərlə qeyri-bərabər qüvvə ilə döyüşürdü. Kiçik bir kəşfiyyat dəstəsi ermənilərin 37 əsgər və zabitini əsir götürür, 42 nəfərini isə məhv edir. Həmin döyüşdə Azər düşmənin atdığı qumbaradan aldığı ağır yaralardan sonra şəhidlik zirvəsinə ucalır. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif olunub.

**Vəli VƏLİYEV,**
**"Respublika".**